## Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səlahiyyətli səfiri Alper Coşkun Qəbələ rayonuna səfər etmişdir



Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səlahiyyətli səfiri Alper Coşkun tanışlıq məqsədilə Qəbələ rayonuna gəlmişdir. RİH-nin inzibati binasında qarşılanan səlahiyyətli səfirə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən regionun iqtisadi vəziyyəti, sosial və mədəni həyatı barədə ətraflı məlumat verilmişdir.

Diqqətə çatdırılmışdır ki, bu gün respublikamızın regionlarında əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələ rayonunun timsalında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır. Qeyd olunmuşdur ki, beynəlxalq və regional iri miqyaslı tədbirlərin Qəbələdə keçirilməsi bu diyarın füsunkar və ecazkar təbiəti ilə yanaşı hər cür şəraitə malik olduğunu bir daha təsdiq edir.

Qəbələ rayonunun simasının nəzərə çarpacaq dərəcədə dəyişdiyini qeyd edən Alper Coşkun burada fəaliyyət göstərən sənaye müəssisələri və turizm sektorunun fəaliyyətini yüksək qiymətləndirmiş, rayonda sosial-iqtisadi inkişafın aparılması istiqamətində uğurlar arzulamışdır.

**Zahir KƏRİMOV,**
**RİH-in informasiya təminatı və təhlili sektorunun aparıcı məsləhətçisi.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN NOYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Savalan kəndi | 05.11.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Həmzəlliu kəndi | 12.11.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Tikanlı kəndi | 19.11.2013 | Mədəniyyət evi, saat $11^{00}$ |
| Şəfili kəndi | 26.11.2013 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

## «Dövlət qulluğunda fərqlənməyə görə» medalı təqdim olundu

Qəzetimizdə xəbər verdiyimiz kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 iyun 2013-cü il tarixli sərəncamı ilə dövlət qulluğunda uzun müddət səmərəli fəaliyyət göstərdiyinə görə respublikanın bir qrup dövlət qulluqçusu orden və medallarla, fəxri fərmanlarla təltif olunmuşdur. Onların arasında «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunan Qəbələ Rayon İcra Hakimiyyətinin informasiya təminatı və təhlili sektorunun müdiri Varis Yaqubov da vardı.



Oktyabr ayının 21-də rayon icra hakimiyyətinin iclas salonunda medalın Varis Yaqubova təntənəli təqdimetmə mərasimi keçirilmişdir. Milli Məclisin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov və rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yüksək mükafatı tədbir iştirakçılarının alqışları altında Varis Yaqubova təqdim etmişlər.

V. Yaqubov mükafatla bağlı çıxış etmişdir. O, çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qulluqçularının səmərəli əmək fəaliyyətinə yüksək qiymət verdiyini vurğulamış, bu mükafat üçün ölkə başçısına minnətdarlığını bildirmişdir. Çıxışına davam edən V. Yaqubov eyni zamanda mükafatı rayonun bütün dövlət qulluqçularının, rayon icra hakimiyyəti əməkdaşlarının fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirmişdir.

Sonda Fəttah Heydərov və Səbuhi Abdullayev Varis Yaqubovla birlikdə xatirə şəkli çəkdirmişlər.

**Nadir ATAKİŞİYEV.**

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

Cənab Prezident bildirmişdir ki, ilin sonuna qədər dövlət investisiya proqramı icra olunmalı, makroiqtisadi sabitlik qorunmalı, süni qiymət artımına yol verilməməlidir.

Gələn il regionların inkişafı ilə balı üçüncü dövlət proqramının qəbul ediləcəyini deyən Prezident orada bölgələrdəki bütün sosial və iqtisadi problemlərin həlli ilə bağlı məsələlərin əks olunacağını vurğulamışdır.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi, elektron xidmətlərin inkişaf etdirilməsi, son 9 ayda 500 mindən çox insanın müraciət etdiyi "ASAN" xidmət şəbəkəsinin ölkə üzrə genişləndirilməsi ilə bağlı tapşırıqlarını verən dövlət başçısı, qarşıdakı dövrdə əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təminatının daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsinin əhəmiyyətinə toxunub.

"Artıq Azərbaycan bölgənin nəqliyyat və loqistika mərkəzidir"—deyən dövlət başçısı Bakı—Tbilisi—Qars dəmir yolunun başa çatmaq üzərə olduğu, Bakı—Tbilisi—Ceyhan neft və Bakı—Tbilisi—Ərzurum qaz kəmərlərinin istismara verildiyini bildirib.

Demoqrafik vəziyyətin yaxşı olmasını ölkənin ən böyük üstünlüklərindən biri kimi xarakterizə edən Prezident cənab İlham Əliyev bildirib ki, son 10 ildə Azərbaycan iqtisadiyyatı görülmüş işlərin nəticəsində 3,4 dəfə artıb. Bu dövrdə ölkəyə 150 milyard dollar investisiya qoyulub, büdcə xərcləri 20 dəfə çoxalıb. Yoxsulluq 10 ildə təxminən 10 dəfə azalıb, xarici dövlət borcu cəmi 7-8 faiz təşkil edib. Pensiyalar 10 dəfə, maaşlar 6 dəfə, müdafiə xərcləri isə 20 dəfədən çox artıb və hazırda Azərbaycanın müdafiə sənayesi 750 adda məhsul buraxır. Son 10 ildə Azərbaycanda 2798 məktəb, 500-ə yaxın tibb müəssisəsi tikilib və ya təmir edilib, 35 olimpiya-idman kompleksi inşa olunub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olmuşdur. Ölkəmiz Kosmos ölkəsinə, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin 9 ayı ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatlatların fəaliyyəti barədə sizə qısa məlumat verdim.

Başa çatmaqda olan 2013-cü ilin ən böyük hadisəsi 9 oktyabrda keçirilən prezident seçkiləri olmuşdur. Bu gün dünyaya inteqrasiya edən, demokratik prinsiplər əsasında irəliyə doğru addımlayan, Avropanın aparıcı dövlətlərindən birinə çevrilən Azərbaycanda keçirilən prezident seçkiləri bir çox ölkələr üçün örnək oldu. Seçkilərin Qəbələ rayonunda da demokratik, ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə edildi. Beynəlxalq təşkilatlar ölkədə keçirilən seçkilərlə bağlı müsbət rəy verdilər. Biz qəbələlilər də bütün Azərbaycan xalqı kimi bu günlər böyük bayram sevincləri içərisindəyik.

Bu uğurlar bizi hələ qarşımızda duran məsuliyyətli və şərəfli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2013-cü ili daha böyük uğurlarla başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Rspublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

Mən çıxışımı möhtərəm prezidentimiz cənab İlham Əliyevin sözləri ilə bitirmək istəyirəm: "Biz daha da güclü Azərbaycan, daha da güclü dövlət quracağıq ki, bu dövlətdə hər bir vətəndaş özünü rahat hiss etsin, sülh, əmin-amanlıq şəraitində yaşasın".

Diqqətinizə görə təşəkkür edirəm.